# Qürurlu Şuşa ili...



Prezident İlham Əliyev bir neçə gün əvvəl, Azərbaycan televiziyası ilə xalqa Yeni il təbriki və müraciətində 2022-ci ili "Şuşa ili" elan etdi. Bir an içində qarşıdan gələn ilin əhəmiyyəti, tarixiliyi gözlərimiz önündə qat-qat böyüdü, artdı. Əslində, 1992-ci il mayın 8-dən, Şuşa erməni işğalına uğrayandan sonra keçən hər il bizim üçün Şuşa ili olub desək yanılmarıq. Şuşasız yola saldığımız hər il həsrət, nisgil və narahatlıqla, düşmənə nifrət və qəzəblə, itirilən hər şey üçün sonsuz kədər və təəssüf hissi ilə dolu idi... İlk günlərini yaşadığımız Şuşa ili isə çəkilənlər üçün bir məlhəmdir, hərbi zəfərimizin siyasi, iqtisadi, mədəni, mənəvi sahələrdə daha da möhkəmləndirilməsidir.

Şuşa şəhərinin əsası XVIII əsrin ortalarında qoyulub. Tarixi mənbələrə görə, Qarabağ xanı Pənahəli xan aramsız hücumlardan qorunmaq üçün 1750-ci illərdə Bayat və Şahbulaq adlı qalalar tikdirsə də, bu qalalardan heç biri xanlığı fasiləsiz müharibələrdən qoruya bilmir.

Qarabağ tarixini araşdıran Azərbaycan tarixçiləri yazırlar ki, dəniz səviyyəsindən 1300-1600 metr hündürlükdə yerləşən və üç tərəfdən sıldırım qayalarla əhatə olunan dağ yaylası bu tələblərə tam cavab verdiyindən, Pənahəli xan şəhəri elə burda salır. Şəhər əvvəlcə onun şərəfinə Pənahabad adlandırılsa da, sonradan adı dəyişdirilərək Şuşa qoyulub.

Şuşa şəhəri təbiəti və saf havasına görə, müalicə əhəmiyyəti baxımından Sovet illərində kurort şəhəri hesab olunub. Burada kilsə və məscidlər, karvansaralar, muzeylər vardı. Şuşa teatrının tarixi XIX əsrin axırlarından başlayıb.

Azərbaycanın Üzeyir Hacıbəyov, Bülbül, Xan Şuşinski, Firudin bəy Köçərli, Əbdürrəhim bəy Vəzirov, Əbdürrəhim bəy Haqverdiyev, Xurşudbanu Natəvan, Həmidə xanım Cavanşir, Əhməd bəy Ağaoğlu kimi məşhur ziyalıları, sənətçiləri əslən Şuşadandırlar.



XIX əsrin sonu və XX əsrin əvvəllərində Şuşa Qafqazın musiqi mərkəzinə çevrilib. Şuşa "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Zaqafqaziyanın konservatoriyası" adlandırılıb. Şəhər işğal olunana kimi orada onlarla muzey, bir neçə orta və ali təhsil müəssisəsi, məktəblər və kitabxanalar olub.

İşğaldan sonra şəhərin əhalisi məcburi köçkün kimi Azərbaycanın müxtəlif bölgələrində yerləşib. Rəsmi məlumatlara görə, Şuşanın işğalı zamanı 195 nəfər həlak olub, 16 nəfər yaralanıb. Bundan başqa 55 nəfər əsir düşüb və ya girov götürülüb. İşğal nəticəsində 22 minə yaxın insan məcburi köçkün düşüb.

Şuşa bizim torpağa bağlılığımızın göstəricisidir və "Şuşa İli" elan edilməsi işğaldan azad edilən torpaqların bərpasında Azərbaycan dövlətinin qətiyyətini, əldə etdiyi nəticələri özümüzə və dünyaya göstərmək üçün yeni bir imkan olacaq. Bu il artıq ilk məcburi köçkün ailələri öz dədə-baba torpaqlarına qayıdacaqlar.

Şuşanın isə sözün əsl mənasında mədəniyyət paytaxtı kimi formalaşmasına dövlət böyük diqqət ayırır. Buna misal olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ölkəmizin mədəniyyət paytaxtı Şuşanın Cıdır düzündə 2021-ci il 12 may tarixində keçirilən "Xarıbülbül" musiqi festivalını göstərə bilərik.

Eyni zamanda bu il Şuşanın əsasının qoyulmasının 270 illik yubileyi tamam olur. Bunun özü Qarabağa, Şuşaya Azərbaycan xalqının bağlılığının növbəti bir göstəricisidir. "Şuşa İli" Azərbaycanın inkişafında, qüdrətlənməsində tarixə yazılan yeni bir səhifə olacağına heç kimin şübhəsi yoxdur.

**İlahə RƏHİMOVA,**
**"Qəbələ"**

# "Şəhid" göz...

Göydəki ulduzların niyə kəhkəşana dönüb də öz parıltısı ilə işıq saçdığının hər kəs şahidi olur. Bu ulduzların həyatı... Bəs onların həyatı haqqında heç öyrənibsinizmi? Ulduzlar yatırmı?... Nədən gecə ilə gündüzü ulduzlar fərqli yaşarlar?!. Duman qatından belə görünən ulduzları hiss edə bilirsinizmi, görürsünüzmü? Ulduzları günün hər saatında belə görmək üçün gərək güclü instiktin ola... gərək həyatda baş verənləri duymaq qabiliyyətin, düşüncə tərzin ola!.. bu isə insan ömrü yaşayanlara məxsusdur.

İnsan və Vətən... Bir-birini tamamlayan məhfumlar vətəni vətən edən insandır. O insan ki, insanlığını dərk edir, yaşadığı həyata anlam verir. Müharibələr insanları sınağa çəkər, dözüm əzmini, iradəsini gücləndirər. Vətən uğrunda vuruşanlar canlarını, sağlamlıqlarını gözlərini belə qırpmadan qurban verərlər. Şəhidlik şəhadətinə qovuşaraq göyləri məskən seçər, ürəklərdə yaşarlar.

**Arzular bələdçi olanda**

Kəndin ən şirin övladlarından idi. Ağlı, düşüncəsi, davranışı ilə hələ körpəlikdən kənd uşaqları arasında hörmət qazanmışdı. Ailədə də böyük-kiçik tanıyan, valideyn zəhmətini qiymətləndirən bir yeniyetmə kimi yetişmişdi. Qəlbi arzular ümmanı idi, hər bir gənc kimi... Kim idi bu gənc?

Mıxlıqovaq kənd sakini Şirinov Vidadinin oğlu Tural. Xanım-xatın, əsl azərbaycanlı qadını, gənc ana Xalidə xanımın laylasından hələ doymayan Tural bala idi. Bu gənc! Aysel bacısının, Pərvin qardaşının arxa-dayağı idi bu çəlimsiz gənc!

2001-ci ildə Mıxlıqovaq kəndində doğulmuş, kənd məktəbində təhsil almışdı. 9-cu sinfi bitirdikdən sonra Qəbələ rayon Dövlət Peşə məktəbinə sənəd verərək orada təhsilini davam etdirmişdi. Peşə, sənət öyrənmək onun arzusu idi...

Hələ orta məktəbdə oxuyarkən vətən məhfumunu daha tez qavramış, bütün dərs ləvazimatlarına vətən sevgisinin istiliyi, işığı ilə toxunmuşdu. Xalqın gərəkli bir övladı olmaq üçün öncə peşə təhsili almaq istəyərək sənədlərini peşə məktəbinin elektrik montyoru fakültəsinə verərək 2017-2019-cu illərdə bu sənətə yiyələnmişdi. Bu onun arzu yollarının bələdçisi oldu...



**Bu günü olmayanın...**

Tural arzuların yelkənində yaşından tez böyüyürdü. Hələ yeniyetməlik çağlarından ayrılmamış görünsə də qəlbən əzmkar, düşüncə tərzi isə zəngin bir gənc kimi yetişirdi. Elə buna görə də, 18 yaşı tamam olandan bir gün sonra əsgəri xidmətə çağırıldı... Əsgər forması geyinən kimi müsəlləh əsgər sevincini yaşadı. Qəlbindəki arzulara sırasıyla "addımlayan" Tural bala 2019-cu il oktyabrın 23-dən etibarən "kişilik məktəbi"nin müdavimi oldu. Qəlbi ilə düşüncəsi danışırdı:

***Səyyah olub həyata seyrçi bir***
***nəzərlə baxmağı istəmirəm,***
***Göylərdə ulduz olub mən yanmaq***
***istəyirəm.***
***Sığınmaq istəyirəm başsız***
***küləklər kimi,***
***Bəslənmək istəyirəm bütün***
***ürəklərdə mən...***

Sevimli şairimiz Məmməd Arazın dediyi kəlamlar sanki Tural balanın həyat devizinə çevrilmişdi:

***Bu günü olmayanın,***
***Nə dünəni olubdur,***
***Nə sabahı olacaq...***

**Sabahları yazan oğul**

Sabahları öz hünəri ilə yaşayanlardandır Tural bala. əsgəri xidmətində həmişə nümunəvi olar, xidməti tapşırıqlarını layiqincə yerinə yetirərdi. Düşmənə nifrət, torpaqlarımızın yağı işğalından azad olması onun erkən arzularından idi. Sanki bu arzu da onun əsgəri xidmətini tarixləşdirdi, onu tarix yazanların sırasına qəbul etdi...

2020-ci ilin sentyabr ayının 27-də başlanan qisas müharibəsi nəinki gənc əsgərdə müharibə xofu yaratdı, əksinə, mənfur ermənilərdən qisas alacaq arzusuna yol açdı...

Tural əsgəri xidmətə başlarkən əvvəlcə Goranboy rayonuna, sonra isə Ağcakəndə yollanıb. əsgəri xidmətini "Ballı qayada" davam etdirib. 3 aydan sonra Ağdam rayonunun Təzəkənd kəndinə göndərilib. Burada da 3 ay xidmət etdikdən sonra Tərtərin Həsənqaya kəndində-"Tülkü dərəsi"ndə xidmətini davam etdirmişdir.

Turaldan "müharibə başlananda hansı hissləri keçirdin"?-deyə soruşduqda dedi ki, o hissləri sözlə ifadə etmək mümkün deyil. İnsan müharibəyə ya sevinmir, ya da ondan qorxmur. Bir oğul, bir vətəndaş kimi, hətta əsgəri geyimdə olursa müharibədə iştirakçı olmaq, haqqın nahaqqa qalib gəlməsinə çalışar, ədalətin bərqərar olması üçün döyüşə həmişə hazır olar.

**Ana yuxusu**

Müharibə 8-in yarısı başlayacaq dedilər. Sentyabrın 27-də Ağdərə istiqamətində döyüşlə başlayır. Tural... Ən güclü döyüşlərdə də qəlbindəki qisas hissi ilə döyüşən Tural Tərtər-Ağdərə istiqamətində, Suqovuşan-Madagizdə gedən döyüşlərdə iştirak etmiş... yaralanmışdı...

Xalidə ana müharibə xəbərini eşidəndən yuxusu ərşə çəkilmişdi. Döyüşən hər bir oğul onun Turalının silahdaşı idi. Ana onların hər birinə duaçı idi. Oktyabrın 3-ü gecəsi isə qəribə yuxu görmüşdü... Bu yuxuda Tural balasının gözünü itirdiyini gördüyü üçün harayla oyanmış, ailəsinin də "töhmətini" götürmüşdü.

Balaların can yanğısı analara ayan olur

Tural döyüşdə göz nahiyəsindən yaralanmışdı. Onu əvvəlcə Gəncəyə "Abbas Səhhət" qospitalına göndərdilər. İlk əməliyyat orada oldu. Gözünün qarası dağıldığı üçün Tural bala gözünü itirdi...

**Sinəsində ölməzliyi:**
**Sağ saxlayan hünər mənəm!**

Vətən sevən oğullar vətən üçün canından keçər. Şəhid olar, şəhadətə qovuşaraq ürəklərdə məskən salar, qazilərsə... Qazilər şəhidliyin astanasının sakinləridir. Onlar bədən üzvlərini şəhid verən-sağlamlığı "şəhid olan", yaşaması əzizləri üçün "ağrı toplusu", özləri üçün isə həm cismani, həm mənəvi əzab olan insanlardır. Məgər qolunu, ayağını, gözünü itirənlər, qabırğası, onurğası şikəst olanlar, yaddaşını itirənlər yenidən onları qazanacaqlarmı?... Onlar döyüşəndə gözlərini belə qırpmadan ölümün gözünə dik baxanlardır. Qəlblərində bir istək, bir arzu:-Vətən sağ olsun! Vətən azad olsun! - vətən bütöv olsun! Axı itirmədən qələbə qazanmaq mümkün deyil, müharibənin də öz qanunları var! Zəfər, qələbə vətən üçündür! Vətən isə onu vətən edənlər olmasa vətən olmaz! Tural doğma ölkəmizin yeni tarix yazanlarındandır!

Onun döyüş məharəti "Cəsur döyüşçü" və "Suqovuşanın azad olunmasına görə" medalları ilə qiymətləndirildi! Bir gözünü "Şəhid" verən yaraşıqlı, həyat dolu bir gəncin ən böyük qiyməti və titulu isə "Qazi" adıdır! Qazi axı şəhidliyin astanasında olanlardır! Qazilər ürəklərdə və göz önündə yaşayan ən müqəddəs, ən ali insanlardır!

Göydəki ulduzlara diqqət etmisinizmi? ən parlaq ulduzlardır, bədəndən ayrı, "Şəhid" gözlər! Onlar gecələr də, dumanda da, çəndə də öz işığını hiss etdirərlər, gündüzlər də yatmaz və aid olduqları üçün "yaşıl işıq" olar. Vətən göylərini kəhkəşana döndərərlər...

**BİBİXANIM.**